# SADİQLİK NÜMUNƏSİ, İLLƏRİN TÖHFƏSİ...
# (NAZİM KAZIMOV - 70)

*Vidadi XƏLİLOV*

Ömrün hər anı o zaman mənalı olur ki, aydın məqsəd yolunda inamlı addımlar atırsan, niyyətin saf, əməllərin sözlərinə uyğun olur. Bu cəhətə fikir verənlər həyat yollarında həmişə uğur qazanır, yaxınların-doğmaların, dost-tanışların sevimlisinə çevrilirlər.

Anadan olmasının 70, pedaqoji-elmi fəaliyyətinin 50 illiyi bu günlərdə tamam olan həmkarımız, əməkdar incəsənət xadimi, professor Nazim Kazım oğlu Kazımov da hamının sevimlisi, qadir Allahın xalqımıza bəxş etdiyi insanlardandır.

Professor Nazim Kazımov və sadiq dostları üçün əlamətdar olan bu günlərdə onun keçdiyi mənalı ömür yoluna nəzər salarkən iftixar hissi ilə bu qənaətə gəldik ki, o, öz işini mükəmməl bilən, musiqi təhsili aləmində dəst-xətti, dəyərli fəaliyyət istiqamətləri ilə tanınan, sayılıb-seçilən pedaqoq alimdir.

Xalqına, Vətəninə sədaqətlə xidmət edən bu zəhmətsevər insanın, mahir pedaqoqun ömür yolu dahilər, görkəmli sənətkarlar diyarı olan Naxçıvandan başlanıb. 1950-ci il aprelin 4-də dünyaya gələndə həmişə ağsaqqallıq, kişilik titulunu daşıyan Kazım kişiyə, qohum-əqrəbaların istəklisi Həcər anaya gözaydınlığı verənlər çox oldu. Həcər ananın həzin laylaları ilə dünyanı dərk etməyə başlayan Nazimin körpəlik-uşaqlıq illəri də bir-birindən maraqlı keçdi.

Görkəmli pedaqoq - psixoloq alimlərin gəldiyi qənaətə görə insanın məktəbəqədər dövrdəki



təəssüratlarının, həyat müşahidələrinin və qabiliyyətlərinin zənginliyi sonrakı həyat mərhələlərinin mənalı keçməsi üçün möhkəm zəmin yaradır. Bəlkə, elə buna görədir ki, o dövrdə iti hafizəsi, bədii maraq və qabiliyyəti ilə yaşıdlarından fərqlənən Nazim ədəbiyyata, musiqiyə könül verdi.1956-cı ildə ayaq açdığı Naxçıvan şəhər Üzeyir Hacıbəyov adına 1 nömrəli orta məktəbdə və bir neçə il sonra Naxçıvan şəhər musiqi məktəbinin tar sinfində oxuyarkən fəallığı ilə seçildi. Onda ədəbiyyata da, musiqiyə də güclü həvəs vardı. Ona görə də orta təhsilini başa vurarkən iki yolun ayrıcında qaldı. Lakin çox düşünmədən ədəbiyyatı da, musiqini də özünə "yol yoldaşı" etdi. 1966-cı ildə mötəbər musiqi təhsili ocaqlarından sayılan Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunun Xalq Çalğı Alətləri şöbəsinin tar sinfinə daxil oldu. 1967-ci ildən isə qiyabi yolla Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almağa başladı.

1970-ci ildə Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunu bitirib təyinatla Əli Bayramlı şəhər musiqi məktəbində tar müəllimi kimi pedaqoji fəaliyyətə başlayanda universitet təhsilini davam etdirdi və 1973-cü ildə buranı filoloq ixtisası üzrə bitirdi. Musiqi təhsilini artırmaq üçün Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Xalq Çalğı Alətləri şöbəsinə daxil oldu. Onun daim oxumaq istəyi dost-tanışları tərəfindən təəcüblə qarşılandı. Hətta "bu qədər oxumaqla nə qazanacaqsan" deyənlər də tapıldı.

Ancaq Nazim müəllim inadından dönmədi. Bilirdi ki, inkişafa, tərəqqiyə, yüksəlişə aparan yolların əsas cığırları məhz ixtisas məktəbindən keçir. Buna görə də sevib-seçdiyi sənətin nəzəri-praktik məsələlərini mükəmməl mənimsəmək üçün gecə-gündüz hey çalışırdı. İxtisas müəllimləri - xalq artistləri, Dövlət mükafatı laureatları, professorlar Səid Rüstəmov (tar ixtisası üzrə), Süleyman Ələsgərov (dirijorluq ixtisası üzrə) yetirmələrinin uğurlarından fərəhlənir, ifaçılıq qabiliyyətini yüksək qiymətləndirirdilər.

"Taleyin gərdişi ilə tələbəm olan Nazim Kazımov çox qabiliyyətli və həssas musiqiçidir. Onun ifaçılıq və pedaqoji fəaliyyətdə böyük uğurlar qazanacağına əminəm". Görkəmli bəstəkarımız, professor Səid Rüstəmov hələ 43 il əvvəl böyük iftixar hissi ilə yetirməsi haqqında təəssüratını bu sözlərlə bitirmişdi.

1970-ci ildə Əli Bayramlı şəhər musiqi məktəbində əmək fəaliyyətinə başlayan N.Kazımov tezliklə şagirdlərin, onların valideynlərinin və pedaqoji kollektivin sevimlisi oldu. Sonralar Nazim müəllimin əmək kitabçasına yeni-yeni ünvanlar, təhsil ocaqları - Bakıdakı 15, 25 nömrəli musiqi məktəbləri yazıldı.







N.Kazımovun 50 illik əmək fəaliyyətinin 16 ili Əli Bayramlı şəhər musiqi məktəbi ilə bağlıdır. O bu məktəbdə tar müəllimi, tədris işləri üzrə direktor müavini, direktor vəzifələrində çalışarkən məktəbin şöhrəti daha da artmışdı. Nazim müəllim o dövrdə şəhər sovetinin deputatı kimi uşaqların və məktəbli gənclərin estetik tərbiyəsi naminə bir sıra mədəni-kütləvi tədbirlərin həyata keçirilməsinə, yeni musiqi kollektivlərinin - Xalq Çalğı Alətləri orkestrinin və ansamblının yaradılmasına nail oldu. Respublikada müxtəlif devizlərlə keçirilən baxışlarda, müsabiqələrdə məktəbin gənc istedadları həmişə fərqlənir, aldıqları fəxri fərmanların, diplomların sayı ilbəil artırdı. Həmin illərdə tələbələrdən Ariz Abduləliyev, Fəxrəddin Qafarov, Vaqif Abuzərov, Vüqar Nəzərov musiqi məktəbi şagirdlərinin ifaçılığı üzrə respublika müsabiqələrində laureat adına layiq görüldülər. Əlbəttə, bunlar hər şeydən əvvəl pedaqoji kollektivin və bu kollektivə bacarıqla rəhbərlik edən Nazim müəllimin aydın məqsəd yolunda səylə çalışmasının real nəticələri idi. Onun yetirmələrindən bir çoxu indi də müstəqil respublikamızda musiqi təhsilinin inkişafı, müasir tələblər səviyyəsində qurulması naminə böyük həvəslə, səylə çalışırlar.

Pedaqoji fəaliyyətinin ilk günlərindən musiqi təhsili sisteminin təkmilləşdirilməsi naminə əzmlə çalışan Nazim müəllim istedadların vaxtında aşkara çıxarılmasına da xüsusi diqqət yetirmişdir. Ariz Abduləliyev, Mübariz Dadaşov, Rahib Məmmədov, Əmirhüseyn Hüseynov, Ramiz Əliyev, Bakıxan Müzəffərov, Fəxrəddin Qafarov, Cəfər Qafarov, Yaqub Manafov və başqaları Respublikamızda musiqi təhsili sistemində mühüm əhəmiyyət kəsb edən fikir və söz sahibləri olmaqla yanaşı, praktik fəaliyyətləri ilə də tanınırlar.

Sevib-seçdiyin sahənin bilikli, səriştəli mütəxəssisi kimi tanınmaq, sayılıb-seçilmək həqiqətən böyük qabiliyyətdir. Nazim müəllim 1992-ci ildə Təhsil Nazirliyində mütəxəssis kimi fəaliyyət göstərməyə irəli çəkiləndə də, şübhəsiz, məhz bu cəhət nəzərə alınmışdı. Burada o, təxminən 10 il aparıcı mütəxəssis, baş mütəxəssis, rəis müavini vəzifələrində çalışaraq təşəbbüskarlığı, səriştəliliyi ilə diqqəti cəlb edir. O, eyni zamanda 1997-ci ildən 2001-ci ilədək Təhsil Nazirliyi Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsini aparır, rəhbərlik etdiyi təşkilatın fəaliyyətini səmərəli qurmaqla həmkarlar ittifaqı üzvlərinə göstərdiyi diqqət və qayğısı, insanlığı, hər kəsin yerini, dilini bilmək qabiliyyəti ilə bu mötəbər qurumun kollektiv üzvlərinin dərin rəğbətini qazanır.

Nazim müəllim nazirlikdə işlədiyi müddətdə də həmişə arayıb-axtarmağa səy göstərmişdir. 1994-cü ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun dissertantı olanda bu səyi, həvəsi daha parlaq şəkildə nəzərə çapdı. Səsi respublikamızda keçirilən ən mötəbər elmi məclislərdən gəldi. Pedaqoji mətbuat səhifələrində bir-birindən maraqlı yazılarla çıxış etdi. Məhz bu səyin, həvəsin və səmərəli elmi araşdırmaların nəticəsində o, "Ümumtəhsil məktəblərində şagirdlərin musiqi qabiliyyətlərinin inkişafında muğam nümunələrindən istifadə üzrə işin sistemi" mövzusunda namizədlik dissertasiyasını tamamlayaraq müvəffəqiyyətlə müdafiə etdi.

Nazim Kazımov yaradıcılıq planlarını əzmlə həyata keçirən alimdir. O. dissertasiya müdafiəsindən sonra da gənc nəslin musiqi-estetik tərbiyəsi üzrə tədqiqatlarını davam etdirir. "Azərbaycan məktəbi" jurnalında, "Azərbaycan müəllimi" qəzetində dərc olunan elmi-metodik məqalələri bu baxımdan əhəmiyyətlidir. N.Kazımovun çap etdirdiyi "Tar, kamança, qanun ixtisası üzrə pedaqoji təcrübə proqramı" (Bakı, 1998), "Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri" (Bakı, 1996, 2000), "Tar ilə fortepiano üçün pyeslər məcmuəsi" (Bakı, 1999) həm Bakı Musiqi Akademiyasının, Milli Konservatoriyanın, həm də orta ixtisas musiqi məktəblərinin şagirdləri üçün dəyərli vəsaitlər kimi qiymətləndirilir.

O, eyni zamanda ali musiqi tədrisi müəssisəsində pedaqoji fəaliyyətini davam etdirərək musiqiçi kadrların hazırlanmasında yaxından iştirak edir. Azərbaycan Dövlət Konservatoriyasında 1981-84-cü illərdə müəllim, 1993-1998-ci illərdə baş müəllim, 1998-2006-cı illərdə dosent vəzifələrində çalışır. 2006-cı ilin fevral ayında Azərbaycan Milli Konservatoriyasının xalq çalğı alətləri kafedrasında professor vəzifəsinə seçilir. Böyük təşkilatçılıq qabiliyyəti nəzərə alınaraq 2001-ci ildə N.Kazımovu Milli Konservatoriyanın nəzdindəki Musiqi kollecinə direktor təyin etdilər. Onun məqsədyönlü fəaliyyəti nəticəsində Musiqi Kolleci əvvəlki şöhrətini qaytararaq ölkənin ən nüfuzlu orta ixtisas musiqi təhsili müəssisəsinə çevrilmişdir. Musiqi təhsili sahəsindəki səmərəli fəaliyyəti layiqincə qiymətləndirilərək N.Kazımov müxtləlif vaxtlarda fəxri fərmanlara, "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanına layiq görüldü. 2006-cı ildə isə Nazim Kazımova ölkəmizdə musiqi təhsilinin, musiqi mədəniyyətinin inkişafına böyük diqqət və qayğı göstərən Prezidentimiz İlham Əliyev cənablarının sərəncamı ilə "Əməkdar incəsənət xadimi" fəxri adı verildi.

Əməyinin yüksək qiymətləndirilməsi onu daha da ruhlandırdı.

2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli bəstəkar və musiqi xadimi, Dövlət mükafatı laureatı Səid Rüstəmovun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzaladı. Ölməz sənətkarın xatirəsinə göstərilən bu hörmət və ehtiram Nazim müəllimi çox sevindirdi. Üzərində işlədiyi "Səid Rüstəmov" monoqrafiyasını çapa hazırladı. 2007-ci ildə "Nərgiz" və "Çaşıoğlu" nəşriyyatı tərəfindən nəfis şəkildə buraxılan bu fundamental monoqrafiya Səid Rüstəmov sənətini layiqincə qiymətləndirənlərin - səidsevərlərin çox böyük marağına səbəb oldu.

Nazim müəllimin rəhbərlik etdiyi möhtəşəm təhsil ocağının - Musiqi Kollecinin 110 illiyinə həsr etdiyi və 2008-ci ildə çapdan buraxılmış kitab da maraqla qarşılanıb. Musiqi təhsili işçiləri, sənətşünas alimlər, müəllimlər, tələbələr və geniş musiqi ictimaiyyəti üçün nəzərdə tutulan vəsaitdə bu müqəddəs sənət - təhsil ocağının keçdiyi inkişaf yolu tarixi mərhələlərlə nəzərə çatdırılır.

Professor Nazim Kazımovun Azərbaycan bəstəkarlıq məktəbinin təməlini qoyanlardan biri kimi tanınan, ancaq 23 il ömür sürən (1909-1932) Asəf Zeynallının anadan olmasının 100 illiyinə həsr etdiyi dəyərli monoqrafiyası isə 2009-cu ildə "Elm və təhsil" nəşriyyatı tərəfindən çap olundu və dərs vəsaiti səviyyəsində dəyərləndirildi. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, xalq artisti, Dövlət mükafatı laureatı, "İstiqlal" ordenli, professor Arif Məlikov "Asəf Zeynallı haqqında ilk monoqrafiya" adlı ön sözdə yazır.

"Monoqrafiyanın dərs vəsaiti kimi nəzərdə tutulması Azərbaycan musiqi tarixi, XX əsr Azərbaycan musiqi ədəbiyyatı fənləri üzrə müəllim və tələbələrə layiqli töhfədir. Digər tərəfdən, Asəf Zeynallı barədə musiqi ədəbiyyatının lazımi səviyyədə olmadığı müasir dövrdə bu monoqrafiya bəstəkarın həyat və yaradıcılığı haqqında geniş məlumata və dərs vəsaitinə olan tələbatı ödəyə biləcəkdir".

Ölkəmizdə musiqi təhsilinin, bütövlükdə musiqi mədəniyyətinin inkişafı sahəsində pedaqoq, bəstəkar kimi öz dəst-xətti ilə tanınan Adil Gəray Məmmədbəyliyə həsr etdiyi monoqrafiyası da diqqətə layiqdir. 2015-ci ildə "Nərgiz" nəşriyyatı tərəfindən nəşr olunan vəsaitdə görkəmli musiqi xadiminin geniş, hərtərəfli bəstəkarlıq və pedaqoji fəaliyyəti işıqlandırılır.

N.Kazımov geniş diapazona malik musiqi pedaqoqudur. Bu ali keyfiyyət onun həyata, ətraf aləmə baxışı, dünya görüşü ilə bağlıdır. Professor Nazim Kazımov yaxşı bilir ki, milli şüurun, vətənpərvərlik tərbiyəsinin inkişafında, formalaşmasında musiqinin çox böyük rolu, təsir imkanları vardır. Bax elə buna görə də o, ali və orta ixtisas musiqi məktəblərində, habelə ümumtəhsil məktəblərində musiqi fənlərinin müasir tələblər səviyyəsində tədrisinə, pedaqoji, metodik təminatına müsbət təsir göstərən tədris vasitələrinin hazırlanmasında yaxından iştirak edir. O, təlim Azərbaycan və rus dillərində aparılan ümumtəhsil məktəblərinin 2, 5, 7, 8-ci sinifləri üçün son illərdə nəşr edilən "Musiqi", "Muzika" dərsliklərinin həmmüəlliflərindən biridir.

Nazim Kazımov Respublika Təhsil Şurası İdarə Heyətinin üzvü kimi geniş fəaliyyət göstərir. O, həyatının, yaradıcılığının müdrik çağında Azərbaycan Milli Konservatoriyası nəzdindəki Musiqi Kollecinə - burada çalışan yaradıcı kollektivə çox böyük diqqət və qayğı ilə rəhbərlik edir. Onu da deyək ki, uzun müddət qəza vəziyyətində olan binada yerləşmiş bu möhtəşəm təhsil ocağının yeni ünvanda, müasir tələblər səviyyəsində fəaliyyət göstərməsində də Nazim müəllimin böyük əməyi var.Bunu kollecin adlı-sanlı müəllimləri, tələbələri və təhsil ocağı ilə müntəzəm əlaqə saxlayan valideynlər də etiraf edirlər.

Bütün bunlar böyük fəxrlə, ürək-qəlb genişliyi ilə belə fikir söyləməyə əsas verir ki, zəngin ənənəsi, tarixi olan bu möhtəşəm musiqi təhsili ocağının rəhbəri, professor Nazim Kazımov daha xoş günlərin, gələcək uğurların təməlini qoyur. Ömrünü müqəddəs musiqi sənətinə vurğunluqla aşılayan həmkarımıza 70 illik yubileyində möhkəm can sağlığı, uzun ömür, daha böyük uğurlar arzulayırıq!

MÜZƏFFƏR İNSAN